


# Şmallenberq virus xəstəliyidir

# Xüsusiyyətlər

Şmallenberq xəstəliyi gövşəyən heyvanlarda bədən temperaturunun yüksəlməsi, ümumi halsızlıq, yemdən imtina, məhsuldarlığın kəskin azalması və boğaz heyvanlar arasında balasalma ilə müşayiət olunan virus mənşəli xəstəlikdir. Xəstəliyə yaşından asılı olmayaraq iri və xırdabuynuzlu heyvanlar yoluxurlar.

Heyvanlar əsasən iki yolla yoluxur:

- Qansoran həşəratlarla
- Ana bətnindən dölə ötürülmə yolu ilə



# Xəstəliyinin əlamətləri

- Heyvanlar yoluxduqdan sonra 1-5 gün müddətində qan vasitəsi ilə bütün daxili orqanlara yayılır
- Heyvanlar qısa müddət ərzində zəifləyir
- İştahası olmur
- Məhsuldarlıq aşağı düşür
- Boğaz heyvanlarda balasalmalar və ya ölü balanın doğulması müşahidə olunur
- Heyvanlarda ölüm halları sürətlə artır



## Xəstəliyinin ağır formasında baş verən hallar

- Diri bala doğsa belə sinir pozğunluqları ilə müşaiət olunan distrofik köklük;
- Ataksiya;
- Süstlük;
- Süd əmmə refleksinin pozulması və s. müşaiət olunur

- Doğulan balalar arasında:
- Oynaqlarda şişkinlik;
- Eybəcərlik ;
- Balada boyunun qatlanması və digər hallar müşahidə olunur;
- Təsərrüfatlarda xəstəlik zamanı 20-70%-ə qədər ölüm ola bilər
- Xəstəliyin simptomları yoluxmanın aktiv olduğu dövrdə qabarıq şəkildə özünü biruzə verir
- Qoyunlar xəstəliyi çox ağır keçirir, ana qoyunlar arasında ölüm çoxalır.

## Profilaktika tədbirləri

- Təsərrüfatda ümumi baytarlıq-sanitariya işləri aparılmalı, yeni gətirilən heyvanlar karantində saxlanılmalıdır
- Xəstə heyvanlar təcrid edilməli, onlara keyfiyyətli və vitaminlərlə zəngin yemlər verilməlidir
- Təsərrüfatda dezinseksiya işlərinin, xüsusən də qansoran həşəratlara qarşı mübarizə tədbirlərin aparılması vacibdir

**QEYD**

Aqrar Xidmətlər Agentliyi fermerlər və təsərrüfat sahiblərinin nəzərin çatdırır ki, heyvanlar arasında yuxarıda qeyd edilən əlamətlər müşahidə edildikdə sahə baytarlıq məntəqəsinə və ya rayon (şəhər) baytarlıq idarəsinə təcili olaraq müraciət etsinlər.



Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 7 A
Çağrı Mərkəzi **1652**
info@axa.gov.az
**www.axa.gov.az**

Aqrar Xidmətlər Agentliyi